AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ



*Görkəmli maarifçi, pedaqoq, ədəbiyyatşünas və publisist
Firidun bəy Köçərlinin anadan olmasının
150 illik yubileyinə həsr olunmuş*

# RESPUBLİKA ELMİ KONFRANSININ
# MATERİALLARI
**( 25-26 noyabr 2013-cü il )**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı – 2013

**Məti OSMANOĞLU***

## F.Köçərlinin maarifçilik fəaliyyəti və milli ideologiya

Firidun bəy Köçərlinin mənsub olduğu ziyalılar tariximizin elə bir dövründə yaşayıb fəaliyyət göstərdilər ki, onlara "yoxdan bir bayraq, müqəddəs ideal rəmzi yaratmaq",[1] olmayan yerdən bir dövlət qurmaq kimi şanlı tale nəsib oldu.

Azərbaycan milli ideologiyasının ərsəyə gəlib formalaşmasında əvəzedilməz rol oynamış Firudin bəy Köçərlinin yaradıcılığında və ictimai fəaliyyətində məktəbin, təhsil və tədris məsələlərinin də xüsusi yeri vardır. Qori

* BDU. Dosent

[1] M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu, "Gənclik" nəşr., Bakı, 1991, səh. 55



müəllimlər seminariyasında Azərbaycan şöbəsinə rəhbərlik etmək, Azərbaycan müstəqillik qazanan kimi həmin təhsil ocağının maddi bazası əsasında Qazax müəllimlər semiraniyasını təşkil edib fəaliyyətə gətirmək tariximizin şərəfli səhifələridir. Firudin bəy fəaliyyəti boyunca milli təhsil və tərbiyənin aktual məsələlərini daim nəzərində saxlamış, tarixi proseslərin içində olmuş, ömrünün sonuna qədər bu sahədə çox faydalı işlər görmüş və elə bu yolda da şəhid olmuşdur.

Mütəfəkkir şəxsiyyət belə hesab edirdi ki, biz öz varlığımızı yaşatmaq, tarixlə ayaqlaşmaq üçün dəyişən dünya reallıqlarından geri qalmamalıyıq. Dünyaya hökm edən avropalılar hansı dəyər və meyarlarla yaşayırlarsa, biz də həmin ölçüləri qəbul etməli, onlardan bəhrələnməliyik. "Dövlət, sərvət, mərifət, kamal, hünər, bilik, bacarıq, rahət güzəran avropalılarda; fəqr, zəlalət, yoxsulluq, cəhalət, avamlıq, hünərsizlik, narahatlıq, icz, əsarət və kəsalət aləmi-islamda. Bunlar gözün tikiblər axirətə, beş günlük ömrü bir tövr keçirib, darü bəqaya vasil olmağa, onlar çalışırlar dünya zindəganlıqlarını rahat etməyə və mürəffəhal ilə dolanmağa, özləri üçün dövlət və hörmət qazanmağa. Bunlar fəlakət və qəflətdə, onlar ciddiyyət və səadətdə; bunlar ölü, onlar diri!"[2] Böyük ürək ağrısı ilə müqayisəli mənzərə yaradan F.Köçərli bildirirdi ki, avropalıların bu səviyyəyə çatmaları heç də müsəlmanlardan artıq dərəcədə qabiliyyətli olmaqları ilə bağlı deyil, onların həyatı, dünyada gedən prosesləri düzgün qiymətləndirə bilməklərindəndir. Müsəlmanlar isə bu dünyanın reallıqlarından əl çəkib, ancaq ölüm və axirət haqqında fikirləşirlər. Ona görə də avropalılara çatmaq üçün öz düşüncə tərzmizi dəyişməli, şüurumuzu hərəkətə gətirməliyik. O, bir maarifçi kimi islam millətlərinin, o cümlədən azərbaycanlıların geriliyinin *"Nə gərəkdir sənə bu dövləti mal, Yükünü yüngül eylə, ey həmmal!"* - deyən zehniyyət tərzindən qaynaqlandığını düşünürdü.

Firudin bəy Köçərli "Həyata dəvət" adlı məqaləsində öz fikirlərini əsaslandırmaq üçün məşhur rus ədiblərindən Q.Petrovun Tolstoyun fəlsəfi düşüncələri barədə tənqidinə xüsusi diqqət yönəldirdi. Məlum olduğu kimi, böyük rus yazıçısı və mütəfəkkiri Lev Nikolayeviç Tolstoy tarixin qaynayıb daşdığı XX əsrin əvvəllərində öz həmvətənlərinə, dindaşlarına zülmə və şərə müqavimət göstərməməyi təbliğ edirdi. Onun əqidəsincə, hər şey Allahın iradəsi ilə baş verdiyinə görə Allahın iradəsinə təslim olmaq lazımdır. Petrov dahi yazıçının bu mövqeyinə qarşı çıxır, insanları fəaliyyətə, tarixi proseslərə müdaxilə etməyə səsləyirdi. Firudin bəy də Q.Petrovun mövqeyini əsas gətirərək müsəlmanları qaramata sürükləyən fəaliyyətsizlik psixologiyasından xilas olmaq üçün ətalətdən qurtulub hərəkət etməyə çağırırdı.

Petrovun məqaləsində Firudin bəyin nəzərini çəkən başqa bir məqam isə Rusiya imperiyasında başqa millətlərə göstərilməsi gərək olan münasibətlə

[2] F.Köçərli. "Həyata dəvət" – "Seçilmiş əsərləri, EA Nəşriyyatı, Bakı, 1963

bağlı idi. "Həyatı unutmayınız, ona rəhminiz gəlsin, həm vücudunuzda, həm başqalarda onu mühafizə ediniz, seviniz və əziz tutunuz, əski və qədim nişangahların uçub dağılmasına razı olmayıb, yazığınız gəlirkən qüvvətli bir millətin hücum və zülmü altında başqa bir zəif millətin hüquq və hürriyyətinin əlindən alınmasına, dilinin və dininin məhv və nabud olmasına rəhminiz gəlməzmi?...."[3] F.Köçərli Petrovun fikrini sitat gətirərək sonda qeyd edirdi ki, "Petrovun bu sözləri qızıl suyu ilə yazılmalıdır!"[4]

Onu da qeyd etmək yerinə düşərdi ki, F.Köçərli Lev Tolstoyun müdafiə etdiyi mütilik ideyasına qarşı başqa bir yazısında da kəskin çıxış etmişdi. Yazı müəllim kadralarının hazırlanması probleminə həsr olunmuşdu. O vaxt Rusiyada nəşr olunan "Novoye vremya" qəzetinin müəllimlərin sosial vəziyyəti ilə bağlı nəşr etdiyi məqalədən istifadə edərək F.Köçərli müəllim hazırlığının bir sıra problemlərinə kəskin münasibət bildirmişdi. Onun vurğuladığı məsələlərdən biri hökumətin müəllim hazırlığına ideoloji mülahizələrlə yanaşması, gənc müəllimlərin siyasi və ictimai təşəbbüslərdən məhrum edilməsi idi: "Sabiqdəki maarif nazirlərinin ümdə fikri yaxşı müəllimlər və qabil müdərrislər yetirmək olmayıb. Onların fikir və xəyalı saldatlar kimi naçalniklərin, rəislərin hökmünə tabe və əmrinə müti çinovniklər hasilə gətirmək olubdur. Onlardan məşhuru qraf Tolstoy müəllimlər yetirmək üçün cavan tələbələrə saldat kimi təlim verdirib, onların bədənlərindən müəllimlik ruhunu çıxardıb, çinovniklik ruhu daxil etməyə müvəffəq oldu"[5].

"Müəllimlərin səyi və qeyrəti sayəsində çox qövm və tayfalar xoşbəxt olub ağ günə çıxıblar, şan və hörmət qazanıblar, dövlət və qüvvət kəsb ediblər"[6], - deyən Firudin bəy belə hesab edirdi ki, "biz Rusiya müsəlmanları müddətimədid müəllimsiz və mürəbbisiz qalıb, tərəqqi yoluna salik olan mütəməddin millətlərin qatarından üzülüb geridə qalmışıq. Uzun müddətlər əbnayi-millətə qaydasınca təlim və tərbiyə verən müəllimlərimiz olmadığına görə belə pərişan hala düşmüşük"[7]. Firudin bəy Köçərlinin qənaətinə görə, millət iki təbəqədən ibarətdir: "rəiyyət tayfası, əkinçi və cütçü qardaşlar" millətin kökünü, özəyini təşkil edən əsas qüvvədir. Millətin "üst təbəqəsi"ni isə onun oxumuşları, "nücəbaları" təşkil edir. Bir ağacın yarpağına bənzəyən həmin nücəbaların borcu öz kökünə xidmət etmək, öz varlığına sahib çıxmaq, kökü qorumaq, millətin

[3] F.Köçərli. "Həyata dəvət" – "Seçilmiş əsərləri, EA Nəşriyyatı, Bakı, 1963
[4] F.Köçərli. "Həyata dəvət" – "Seçilmiş əsərləri, EA Nəşriyyatı, Bakı, 1963
[5] F.Köçərli. "Müəllimlərimiz və onların halı" – "Seçilmiş əsərləri, EA Nəşriyyatı, Bakı, 1963
[6] F.Köçərli. "Müəllimlərimiz və onların halı" – "Seçilmiş əsərləri, EA Nəşriyyatı, Bakı, 1963
[7] F.Köçərli. "Müəllimlərimiz və onların halı" – "Seçilmiş əsərləri, EA Nəşriyyatı, Bakı, 1963



"torpaq altda qalan" təbəqəsini işığa çıxarmaqdır. Ədibi yarpaqların öz köklərinə laqeydliyi narahat edirdi: "...öz zahiri kamal və tərbiyəmizlə, nəcabətimizlə, təzə modada tikilmiş libasımızla və müzəyyən və münəqqəş otaqlarımızla iftixar və sərkəşlik edib, qaranlıqda qalan cəhl və nadanlıq cəngində zar və zəbun olan qardaşlarımızın dad və harayına yetişmirik"[8].

Bu laqeyd münasibətin, millətin torpağın altında olan köklərinin diqqətdən kənarda olmasının acı nəticəsi kimi cəhalət qaranlığının gündən-günə qatılaşdığı, tənəzzülün saatdan-saata dərinləşdiyi, millətin yüz il boyu zamanın çağırışlarına cavab verə, dəyişə bilmədiyi göstərilirdi. Problemi dərinləşdirən isə bu idi ki, "...bu müddətin ərzində sair əqvam və miləl kəmali-sürətlə irəli gedib, bizi geridə qoyublar"[9].

Millətin geridə qalmağının əsas səbəbini elmsizlikdə, təhsilsizlikdə, maarifsizlikdə görən F.Köçərli savadlı insanları həm özünün fərdi nümunəsi ilə, həm də yazıları ilə fədakarlığa səsləyirdi. Belə hesab edirdi ki, milli gerilik probleminin mənbəyi millətin önündə getməli olan insanların – oxumuşların milli mənafe və maraqlara əhəmiyyət verməməsindədir. Təəssüflə və ağrı ilə qeyd edirdi ki, elmə və maarifə yiyələnmiş soydaşlarımızın əksəriyyətinin "ümdə arzusu özlərini şəhərə salıb, isticə və mənfəətli qulluq tapmaqdır"[10].

Ədib cavan müəllimləri qınayırdı ki, onlar kənddən dərhal üz döndərir, bir ildən artıq kənddə qalıb cəhalət qaranlığında qalan həmvətənlərimizin təhsil və tərbiyəsi ilə məşğul olmaqdan boyun qaçırırlar. Kənarda yüksək təhsil ocaqlarında ali təhsil alanlarımız kəndlərə gedərək nadanlığın və cahilliyin aradan qaldırılmasını, din qardaşlarını qəflət yuxusundan oyatmağı, öz elm və mərifəti ilə onları da nurlandırmağı özləri üçün əskiklik və təhqir hesab edirlər.

Böyük mütəfəkkirin qənaətinə görə, millətin içindən çıxmış təhsilli gənclərin öz şəxsi mənfəətlərini millətin ümumi maraqlarından, tarixin millət qarşısına qoymuş olduğu vəzifələrdən üstün tutmağa haqqı çatmır. O, bir məqamı xüsusi vurğulayırdı ki, qızıl-gümüşün cazibə qüvvəsinə məğlub olan ziyalılarımız sözə gəldikdə millət uğrunda hər şeyə hazır olduqlarını deyirlər. "Təəccüb budur ki, hansı bir ziyalı və mədəniyyətli müsəlman qardaşı dindirirsən ahi-cigərsuz ilə deyir: "Millət əldən getdi, dinimiz puç oldu, sair tayfalar bizi qoyub irəlilədi. Gərəkdir çalışaq, gərəkdir rahatlığı özümüzə haram edək,

[8] F.Köçərli. Qaranlıqda qalanlarımız, Seçilmiş əsərləri, EA Nəşriyyatı, Bakı, 1963
[9] F.Köçərli. Qaranlıqda qalanlarımız, Seçilmiş əsərləri, EA Nəşriyyatı, Bakı, 1963
[10] F.Köçərli. Qaranlıqda qalanlarımız, Seçilmiş əsərləri, EA Nəşriyyatı, Bakı, 1963

millәti oyadaq, onun uğrunda can vә maldan keçәk, ona tәrbiyә verәk, elm nuru ilә onu işıqlandıraq" vә bu qisim laf-kәzafdan dәm vurub boşboğazlıq edirlәr"[11].

Firudin bәyin ictimai baxışlarında mühüm yer tutan әn mühüm mәsәlәlәrdәn biri dә ana dili idi. Bu mövzu ilә bağlı әdib 1913-cü ilә "Ana dili" adında ayrıca genişhәcmli bir mәqalә yazmışdı. Azәrbaycançılıq ideologiyasının tәrәfdarı olan F.Köçәrlinin dillә bağlı fәaliyyәti iki istiqamәti әhatә edirdi:

1. Әdәbi dil quruculuğu, Azәrbaycan-türk dilinin tәmizliyi mәsәlәlәri. Firudin bәyin әdәbi dil mәsәlәsi ilә bağlı mövqeyi çox aydın idi vә Azәrbaycan dilini Osmanlı dilindәn fәrqlәndirmәyin qәti tәrәfdarı idi. Bu mәsәlәdә onun Әli bәy Hüseynzadәyә qarşı mövqeyi dә çox sәrt idi. "Allah Әlibәy Hüseynzadәyә insaf versin. Kaş o alicәnab İstambulda rahat әylәşib, bizim şumbәxt Qafqaza tәşrif gәtirmәyә idi. O cәnabın elm vә kamalına sözümüz yoxdur. Sözümüz ondadır ki, elm vә kamalından bizә bir bәhrә vermәdi, ancaq dilimizә pozğunluq saldı, tәzә dil gәtirdi. Әtrafını bir dәstә meymunlar bürüdü vә ona tәqlid etmәkdә biri-birinә macal vermәyib, "böyük hünәrlәr" göstәrdilәr. Az vaxtın içindә Qafqaz türklәrinin dili osmanlı sözlәri vә istilahları ilә doldu". Qeyd edәk ki, әdibin "Ana dili" adlı bu mәqalәsi 1913-cü ildә nәşr olunmuşdur.

2. Dilin tәdrisi ilә bağlı ciddi problemlәr. Bu mәsәlә ilә bağlı F.Köçәrli maraqlı bir müqayisә aparmışdı. Gürcü maarifçisi Yakov Semyonoviç Qoqebaşvilinin xatirәsinә hәsr etdiyi mәqalәdә maraqlı bir mәtlәbә toxunurdu. Firudin bәy Qoqebaşvilinun öz xalqının maariflәnmәsi, ana dilinin tәdrisi sahәsindә fәaliyyәtini yüksәk qiymәtlәndirәrәk mövzunu Azәrbaycanın tәhsil problemlәrinin üzrinә gәtirirdi: "Mәrhum Qoqebaşvili xalq mәktәblәrindә ana dilinin tәdrisinә böyük әhәmiyyәt vermiş vә onu müdafiә etmәk üçün bir sıra ciddi vә әmәli sәciyyә daşıyan mәqalә vә kitabçalar yazmışdır. Qoqebaşvilinin kitablarının yerli әhali arasında on vә yüz min nüsxәlәrlә yayılması da bununla izah olunur. Bu dәrsliklәr uşaq tәbiәtinin vә dilinin sadәliyini çox az nәzәrә alan Azәrbaycan ibtidai mәktәblәri üçün kitab tәrtib edәnlәrә tәqlid etmәyә diqqәtәlayiq nümunә ola bilәr"[12].

Firudin bәy Köçәrlinin ictimai fәaliyyәtindә, bir şәxsiyyәt kimi mövqeyindә vә maarifçilik görüşlәrindә әdәbiyyat mәsәlәlәri dә fәrqli tarixi mәna vә mәzmun daşıyır. "Әdәbiyyat millәtin aineyi-hәqiqәtnümasıdır ki, onun maddi vә mәnәvi tәrәqqisi vә istiqbalı üçün nicat vә sәadәt yollarını eynilә göstәrir"[13], - deyәn әdib әdәbiyyatı millәtin hәqiqәtlәrini әks etdirәn güzgü kimi qiymәtlәndirmәklә yanaşı, hәm dә milli şüurun tәşәkkül tapmasında, millәtin maddi vә mәnәvi tәrәqqisi üçün başlıca amillәrdәn hesab edirdi. Müasir Azәrbaycan milli tәhsilinin etibarlı tәmәllәrindәn olan "Vәtәn dili" dәrsliyinin redaktoru kimi, "Balalara hәdiyyә" adlı uşaqlar üçün bu gün dә dәyәrini saxlayan qiymәtli oxu kitabının, dәyәrli mәqalәlәrin vә "Azәrbaycan әdәbiyyatı" adı ilә çap olumuş ikicildlik fundamental araşdırmaların müәllifi kimi o öz tarixi tәyinatını mәhz millәtә xidmәt etmәkdә görürdü. "Balalara hәdiyyә" kitabının "Ön söz"ündә yazdığı kimi: "Zәnnimizcә, bu mәcmuәni hәr kәs oxusa – böyük, ya kiçik – onun qәlbi açılıb xәndan olacaqdır. Balalar şad olacaq bu sәbәbә ki, onda dәrc olunan әsәrlәrin cümlәsi onların dünyasındadır. Böyük adamların ürәklәrinin açılmağına sәbәb bu olacaqdır ki, onlar mütaliә әsanasında öz uşaqlıq vaxtlarını ixtiyarsız xatırlarına götürәcәklәr. Bu isә, yәni qәlbi şad etmәk, özlüyündә bir xidmәtdir".[14]

[11] F.Köçәrli. Qaranlıqda qalanlarımız – Seçilmiş әsәrlәri, EA Nәşriyyatı, "Bakı", 1963

[12] F.Köçәrli. Yakov Semyonoviç Qoqebaşvili – Seçilmiş әsәrlәri, EA Nәşriyyatı, Bakı, 1963

[13] F.Köçәrli. "Azәrbaycan әdәbiyyatı", "Elm" nәşriyyatı, Bakı, 1973, sәh. 70